# Bakı Dövlət Universiteti dünya reytinqlərində

## BDU 99 ölkədən olan 1600 ali təhsil müəssisəsi arasında yer alıb




Sentyabrın 2-də Böyük Britaniyanın ali təhsil sahəsində ixtisaslaşmış "Times Higer Education" nəşrinin 2022-ci il üzrə dünya reytinqi açıqlanıb. Çox sevindirici haldır ki, tarixində ilk dəfə olaraq Bakı Dövlət Universiteti (BDU) 99 ölkədən olan 1600 ali təhsil müəssisəsi arasında yer alıb. Qlobal reytinqə isə Böyük Britaniyanın Oksford Universiteti liderlik edir. Bundan başqa BDU Harvard Universitetinin başçılıq etdiyi "Universitetin üç missiyası" dünya reytinqinə də daxil olub.